**Tarix və onun problemləri, №3 2009**

**ZAUR SƏLİMOV**
*AMEA-nın Tarix İnstitutunun aspirantı*

# 1991-2003-CÜ ILLƏRDƏ AZƏRBAYCANDA AĞIR SƏNAYE SAHƏSINDƏ ISLAHATLARIN QANUNVERICILIK BAZASININ YARADILMASI VƏ IQTISADI ARTIM

Qeyd etmək lazımdır ki, məhz 1991-ci ildə başlanan siyasi və iqtisadi dəyişikliklər nəticəsində respublika iqtisadiyyatının bütün sahələrində olduğu kimi, sənaye istehsalında da inkişaf tempi aşağı düşmüşdür. SSRİ-nin dağılması, Azərbaycanın müstəqillik əldə etməsi ilə əlaqədar iqtisadiyyatın inkişafında ciddi problemlər yaranmışdır. Azərbaycanın bir sıra istehsal sahələri yanacaq, kimya, neft maşınqayırması ümumittifaq əmək bölgüsündə müvafiq olaraq, SSRİ-nin digər region və respublikalarının tələbatlarını ödəyirdi. SSRİ dağıldıqdan sonra bu əlaqələr qırılmış, Azərbaycan həmin məhsulların satıldığı bazarları itirmişdir. Azərbaycan iqtisadiyyatının tez bir zamanda ağır bir vəziyyətə düşməsinin başlıca səbəblərindən biri də ondan ibarət idi ki, əldə edilən müstəqilliyin ilk dövrlərindən bazar iqtisadi münasibətləri barədə aydın təsəvvürlər yox idi, onun mahiyyəti lazımı dərəcədə öyrənilib respublikanın xüsusiyyəti ilə əlaqələndirilməmişdir və dərhal bu sistemə keçid adı ilə istehsalın təşkili və idarə olunması başlı-başına buraxılmışdır. Böhranın əsas səbəblərindən biri də 1992-ci "Liberallaşma" ilinə respublika rəhbərliyinin hazırlıqsız qədəm qoyması olmuşdur. 1992-ci ildən başlayaraq Azərbaycan Respublikası Rusiyanın liberal-monetarist doktrina əsasında həyata keçirdiyi "Şok terapiyası" iqtisadi islahatlarının təsirinə məruz qalmışdı. İdxal-ixrac işində barterin geniş yayılması ölkə iqtisadiyyatına zərbə vuran ən neqativ hallardan biri idi. Müstəqilliyin ilk illərində sənayedə vəziyyət acınacaqlı hala düşmüşdür. MDB ölkələri ilə əvvəllər mövcud olmuş sıx əlaqələrin qırılması, idarəetmədə yol verilən naşılıq və məsuliyyətsizlik, sahədaxili zəruri struktur dəyişikliklərinin aparılmaması, cəlb olunduğumuz müharibənin ağır nəticələri sənayenin inkişafına mənfi təsir göstərmişdir. Bu və ya digər amillərin təsiri nəticəsində sənaye istehsalının həcmi 1988-1993-cü illərdə nəzərəçarpacaq dərəcədə azalmışdır. Bu aşağıdakı cədvəldə aydın görünür.

| | 1988 | 1989 | 1990 | 1991 | 1992 | 1993 | 1993-cü ildən 1988-ci ilə nisbətən. |
|---|---|---|---|---|---|---|---|
| | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| Metallurgiya Polad (min ton) | 726 | 696 | 501 | 462 | 413 | 236 | 32,5 |
| Polad borular | 264 | 584 | 493 | 411 | 260 | 146 | 24,2 |
| Maşınqayırma, Neftçıxarma avadanlığı(min ədəd) | 6,2 | 5,4 | 5,2 | 4,1 | 2,9 | 1,9 | 30,6 |
| Nasos qurğuları(min ədəd) | 465 | 494 | 527 | 462 | 393 | 161 | 21,6 |
| Elektirik motorları (min ədəd) | 7105 | 6496 | 4860 | 3774 | 1837 | 1355 | 19,1 |
| Tikinti materialları | 1912 | | | | | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | 1688 | 1312 | 1190 | 989 | 574 | 30 |
| Kimya sənayesi Gübrə (min ton) | 320 | 275 | 212 | 188 | 81 | 32 | 10 |
| Metal məmulatları(min ədəd) | 1893 | 1195 | 1948 | 724 | 355 | 557 | 29,4 |

Bu köklü dəyişikliyin iqtisadi inkişafa məlum təsirinin miqyasını təsəvvür etmək üçün göstərmək kifayətdir ki, SSRİ-nin süqutu ərəfəsində Azərbaycanın idxal məhsullarının 73 faizini, ixrac məhsullarının 94 faizini başqa müttəfiq respublikalarla həyata keçirilən iqtisadi əlaqələr təşkil edirdi. Nəticədə 1993-cü ildə respublika sənayesinin fiziki həcm indeksi 1990-cı il səviyyəsinin 51 faizini təşkil edirdi. 1990-cı ildən 1993-cü ilə qədər olan müddətdə sənaye sahəsində azalma aşağıdakı cədvəldən aydın görünür.[1, 16.12.1997].

| | 1990 | 1993 |
|---|---|---|
| Elektirik enerjisi istehsalı | 23,2 milyard kvt-saatdan | 19 milyard kvt-saata |
| Neft çıxarılması | 12,5 faizdən | 10,3 milyon tona |
| Təbii qaz istehsalı | 10 milyard kubmetrdən | 6,4 milyard kubmetrə |
| Polad borular | 493 min tondan | 145 min tona |
| Sement istehsalı | 990 min tondan | 600 min tona |
| Dəmir filizi | 501 min tondan | 374 min tona |

1992-1993-cü illərdə ölkədə ÜDM istehsalı demək olar ki, iki dəfə, sənaye məhsulu istehsalı isə 23-24 faiz aşağı düşmüşdür. İnflyasiyanın səviyyəsi sürətlə artaraq ildə 1000-1800 faizə çatırdı.[2, 5.2.2000].

1991-ci ildən sonra respublikamızda yaranmış vəziyyətlə əlaqədar olaraq Azərbaycanın neft sənayesi də ağır vəziyyətə düşmüşdür. Maliyyə çətinliyi, kəşfiyyat və istismar qazmasının aşağı düşməsi, uzunmüddətli istismar nəticəsində yataqların gücdən düşməsi, 150-200 metrdən artıq dərinlikdən neft çıxarılması üçün müasir texnalogiya və texnikanın olmaması nəticəsində neft və qaz hasilatının səviyyəsi aşağı düşmüşdür. 1987-ci illə 1997-ci il arasında on il müddətdə Azərbaycanda neft hasilatı 14.280 milyon tondan 9.022 milyon tona düşmüşdü.[23, s.217].

Sovetlər ittifaqının dağılması prosesi gedərkən bir çox iqtisadçıların təhlilinin nəticələri göstərirdi ki, 15 sovet respublikasından ikisi-üçü müstəqillik dövründə özünü tam yaşada bilərsə, bunlardan biri də Azərbaycandır. Bu Azərbaycanın həm təbii sərvətləri, həm də iqtisadi potensialı ilə bağlıdır. Əgər təbii sərvətlərimizin bir hissəsi sənaye istehsalının əsasını təşkil edirsə, sənayedə işləri yenidən qurmaq lazımdır.[24, s.275].

11 avqust 1994-cü ildə Prezident sarayında respublika iqtisadiyyatının vəziyyətinə həsr olunmuş müşavirə keçirilmişdir. Müşavirədə 1994-cü ilin birinci yarısının yekunlarını müzakirə etmək qərara alınmışdı. Müşavirədə çıxış edən Prezident qeyd edirdi ki, iqtisadiyyatımızın əsas hissəsini təşkil edən aparıcı sahə sənayedir, əsaslı tikintidir və bununla bağlı olan sosial sahədir. Ona görə də bugünki müşavirəni biz həmin sahələrə həsr etməyi nəzərdə tuturuq. Baş nazirin müavini, iqtisadiyyat naziri Səməd Sadıqovun məlumatında gösdərilirdi ki, sənaye müəssisələrimiz əvvəlki illərdəkinə nisbətən öz imkanlarının 30 faizi, bəzən də 50 faizi səviyyəsində fəaliyyət göstərir. Səməd Sadıqovun məlumatına görə, istehsal edilmiş məhsulların təxminən 50 milyard manat məbləğində olan hissəsi satılmamışdır. Şübhəsiz ki, bütün bunlar istehsalın azalmasına, maliyyə vəziyyətimizin pisləşməsinə gətirib çıxarır. Yekun nitqində Prezident deyirdi:

"Dəfələrlə qeyd etdiyimiz kimi, müstəqil Azərbaycan dövlətinin iqtisadiyyat sahəsində strateji yolu, strateji xətti bundan ibarətdir ki, bizdə mülkiyyət forması tədricən

dəyişdirilməli, iqtisadiyyatımız bazar iqtisadiyyatı əsasında qurulmalı, təşəbbüskarlığa geniş meydan verilməlidir. Məhz bu, iqtisadiyyatımızın strateji yoludur.[18, s.113].

Neft sənayesinin inkişaf etdirilməsi mənbələrini dərindən təhlil edən H.Əliyev müəyyən etmişdir ki, Azərbaycanın neft yataqlarında çoxlu miqdarda neft və neft məhsulları vardır. Lakin quruda neft çıxarılması geniş miqyasda müasir texnologiya tələb etdiyi, dənizdə isə dəniz suyunun dərinliyi ilə əlaqədar çətinliklər yaranırdı. Bu çətinliklər neftin çıxarılmasını Qərbin böyük neft şirkətləri ilə birlikdə həyata keçirmək zərurətini yaradırdı və bu sahədə əsaslı müqavilələrin imzalanması tələb olunurdu. Nəhayət, üç ildən çox müddətdə aparılan danışıqlar nəticəsində 1994-cü il sentyabrın 20-də Azərbaycan Dövlət Neft Şirkəti ilə dünyanın 11 böyük Neft Şirkəti arasında Bakıda, "Gülüstan" sarayında Xəzər dənizinin Azərbaycan sektorunda olan "Azəri", "Çıraq" və Günəşli" yataqlarında birgə neft çıxarılması haqqında ilk neft müqaviləsi imzalandı.

Azərbaycan araşdırıcılarının çoxu belə hesab edirdi ki, islahatlar 1994-cü ilin sentyabrından başlandı və onun startı "Əsrin müqaviləsinin" imzalanması ilə bağlıdır.[3, 10.12.1994].

Belə bir dövrdə Azərbaycan Respublikasının Prezidenti deyirdi:

"Azərbaycan Respublikasının ağır böhran vəziyyətdən çıxması üçün sosial-iqtisadi sahədə böyük işlər görülməlidir. Təsəvvür edin ki, müstəqilliyimizin əldə edilməsi bizim üçün tarixi hadisədirsə, iqtisadiyyatımızın belə vəziyyətdə olması ağır və çətin bir haldır. Bu sahədə demokratik islahatlar keçirmək, ağıllı hərəkət etmək bizim borcumuzdur".[27, www.president.az].

Prezident göstərirdi ki, iqtisadi sistemin transformasiyasında yaranmış iqtisadi böhrandan çıxmaq üçün sənayedə islahatlar aparılmalı, daxili imkanlardan maksimum istifadə edərək xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsi olduqca lazımdır. Bu məqsədlə 1995-ci il martın 7-də Prezident yanında respublikada özəlləşdirmənin həyata keçirilməsi məsələlərinə həsr olunmuş geniş müşavirə keçirilmişdir. Müşavirədə Prezident qeyd etdi ki, iqtisadiyyatımızın böyük bir sahəsi də sənayedir. Sənayedə iqtisadi islahatların aparılması birinci növbədə özəlləşdirmə tədbirlərinin həyata keçirilməsi ilə əlaqədardır. Özəlləşdirmə haqqında 1993-cü il yanvarın 7-də qanun qəbul edilsə də ondan irəli gələn vəzifələrin, tədbirlərin həyata keçirilməsi proqram olmadığı üçün mümkün olmamışdır. [19,s.232-242]. Azərbaycanda mülkiyyət islahatını sürətləndirmək, onun mütəşəkkil getməsini təmin etmək məqsədi ilə Prezident 1995-ci il martın 8-də "Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsi sahəsində əməli tədbirlər haqqında" fərman verdi.[15, s.23].

1995-ci il noyabrın 21-də Azərbaycan Respublikasında "1995-1996-cı illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin dövlət proqramının təsdiq edilməsi haqqında" qanun qəbul edilmişdir.

Özəlləşdirmənin respublikada aparılan iqtisadi islahatların tərkib hissəsi olduğunu və islahatların aparılması prosesində mühüm əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, bu sahədə işləri səmərəli təşkil edərək özəlləşdirməni sürətləndirmək və qarşıya cıxan çətinlikləri aradan qaldırmaq məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti 8 yanvar 1996-cı ildə "Özəlləşdirmənin həyata keçirilməsi tədbirləri haqqında" qərar qəbul etmişdir.[4, 9.1.1996].

Ölkənin sənaye istehsalında 1997-ci ilin əvvəlindən yaranmış sabitlik ilin sonunadək davam etmişdir və il ərzində azca da olsa (0,3 faiz) əldə edilən artım bu sahədə dönüş yaranmasından xəbər verir.(1996-cı ildə sənaye istehsalında azalma 6,7 faiz olmuşdur).[5, 12.1997].

1997-ci ildə ən mühüm 26 sənaye məhsulu növlərinin 19 növü üzrə nəzərəçarpacaq artım müşahidə edilmişdir.[20, s. ].

Metallurgiya sənayesində iqtisadi islahatları sürətləndirmək, bu sahənin inkişafı üçün investisiyaların cəlb edilməsini təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidenti 19 may 1998-ci ildə sərəncam imzalamışdır.[6, 20.5.1998].

"1995-1998-ci illərdə özəlləşdirməyə dair Dövlət proqramı"nın yerinə yetirilməsinin müddəti 1998-ci ildə başa çatırdı. Lakin özəlləşdirmə sahəsində qarşıda xeyli vəzifələr dururdu. Hər şeydən əvvəl, özəlləşdirilmiş müəssisələrdə işlərin keyfiyyətini, təsərrüfatçılığın səviyyəsini yüksəltmək və özəlləşdirmənin miqyasının və sahəsinin genişləndirilməsi tələb olunurdu. Bu məqsədlə Prezident 2 iyul 1998-ci il sərəncamı ilə "Azərelektroterm" Elm-İstehsal Birliyinin Bakı Ağır Elektrik Qaynaq Avadanlıqları zavodunun özəlləşdirilməsini qərara aldı.[25. s.271].

Ölkədə aparılmış islahatların nəticələrini müzakirə etmək üçün 6 noyabr 1998-ci ildə Azərbaycan Respublikası Nazirlər kabinetinin ölkənin iqtisadi və sosial inkişafının yekunlarına həsr olunmuş geniş iclası kecirilmişdir. İclasda qeyd edilmişdir ki, sənaye məhsulları istehsalı 9 ayda 1,1 faiz artmışdır.[26, s.173].

İqtisadi islahatların həyata keçirilməsi tezliklə öz müsbət nəticəsini göstərirdi. Qazanılan naliyyətlər Prezidentin 19 noyabr 1998-ci il tarixli "1998-ci ilin yanvar-sentyabr aylarında ölkənin iqtisadi və sosial inkişafının yekunları" haqqında sərəncamında ciddi araşdırmalar və təhlillər nəticəsində ümumiləşdirilmişdir. Göstərilmişdir ki, bu dövrdə ÜDM istehsalının həcmi 11 milyon tona çatmış və 1997-ci ilin müvafiq dövrünə nisbətən 8,5 faiz artmışdı. Sənaye məhsulunun həcmi müvafiq olaraq 8,9 trilyon manata çatmışdı. Sənayedə artım əsasən neft hasilatının və elektirik enerjisi istehsalının artması və özəl bölmənin inkişafı hesabına əldə edilmişdir. 9 ayda neft hasilatı 8,4 milyon ton təşkil etmişdir ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 24,1 faiz çoxdur. Sənayenin qeyri–dövlət sektorunda artım 30 faiz olmuşdur. Cari ilin 9 ayında ölkə iqtisadiyyatına bütün maliyyə mənbələri hesabına 4 trilyon manat və ya keçən müvafiq dövrünə nisbətən 47 faiz çox kapital qoyuluşu yönəldilmişdir. Özəlləşdirməyə başlandığı vaxtdan Azərbaycanda 19342 kiçik, 936 orta və iri dövlət müəssisəsi və obyekti özəlləşdirilmişdir.[27, s.270].

Dövlət Statistika Komitəsinin məlumatına görə 1999-cu ilin yanvar-oktyabr aylarında ölkə iqtisadiyyatında 13 trilyon manatlıq ÜDM istehsal olunmuşdur ki, bununda 23,3 faizi sənayenin payına düşür. On ay ərzində ölkədə 9150,2 milyard manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 3,1 faiz çox sənaye məhsulu istehsal edilmişdir.[7, 26.11.1999] 2000-ci ildə Azərbaycan Respublikası iqtisadiyyatında sənayenin inkişafı sevindirici olmuşdur. Ötən ilə nisbətən sənaye sahəsində artım aşağıdakı cədvəldə göstərilmişdir.[8, 11.2000].

| Sənaye sahəsinin adı | Artım |
|---|---|
| Elektroenergetika sahəsində | 1,4 faiz |
| Neft və qaz hasilatı sahəsində | 1,9 faiz |
| Neft emalı sahəsində | 9,1 faiz |
| Kimya və Neftkimya sahəsində | 25 faiz |
| Metallurgiya sahəsində | 3(dəfə) |
| Maşınqayırma sahəsində | (1,7 dəfə) |
| Tikinti materialları sahəsində | (20,2 faiz) |

2000-ci ilin avqust ayında 1999-cu ilin müvafiq dövrü ilə müqayisədə ÜDM 9,2 faiz artaraq 12,6 trilyon manata çatmışdır. ÜDM-un 28,7 faizi sənaye sahələrində yaradılmışdır.[9, 2.10.2000].

"Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası qanununun icrası ilə bağlı əlavə tədbirlər barədə Azərbaycan Respublikasının Prezidenti 23 dekabr 2000-ci ildə fərman imzalamışdır.[10, 24.12.2000].

İqtisadi yüksəlişdə Azərbaycana qoyulan investisiyaların artmasının mühüm rolu vardır. Son illərdə, xüsusilə 1996-cı ildən kapital qoyuluşu artmağa başlamışdır. 1996-cı ildə Azərbaycana kapital qoyuluşunun həcmi 65 faiz, 1997-ci ildə 67 faiz, 1998-ci ildə 45 faiz artmışdı. 1996-2000-ci illərdə Azərbaycana 5,0 milyard ABŞ dolları həcmində xarici investisiya qoyulmuşdu. Qoyulan kapitalın iqtisadiyyatın rabitə, maşınqayırma, yeyinti, xidmət sahələrində payı 1996-cı ildə 33 faizə, 1997-ci ildə 40 faizə, 1999-cu ildə isə 50 faizə çatmışdı.[21, 30.12.2000].

Təkcə 2000-2001-ci illər ərzində özəlləşdirmə prosesinin müxtəlif asbektlərini tənzimləyən 20-dən artıq normativ-hüquqi sənədin təsdiq edilməsi özəlləşdirmə prosesinin hüquqi bazasının təkmilləşdirilməsi istiqamətində atılan mühüm addımlardır.

Dövlət Statistika Komitəsinin məlumatına görə 2001-ci ilin on ayı ərzində ölkədə 20,8 trilyon manatlıq ÜDM istehsal olunub. ÜDM-un 35,5 faizi sənaye sahəsində yaradılıb. Artım neft və qaz hasilatında 5,6 faiz, maşınqayırma müəssisələrində 29 faiz olub. Qeyri-dövlət bölməsində sənaye məhsulu istehsalı 48,4 faizə çatıb.[11, 8.1.2002].

Özəlləşdirmə prosesi başlayandan 2002-ci ilin yanvarın 1-nə kimi 653 sənaye müəssisəsi satılmışdır. Orta və iri sənaye müəssisələrinin səhmdar cəmiyyətlərinə çevrilməsi nəticəsində 1998-2001-ci illərdə 276 səhimdar cəmiyyəti yaradılmışdır.[17, 25.9. 2002].

Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi nəticəsində mülkiyyət forması dəyişilmiş, yeni müəssisələr yaranmışdı. 1997-2001-ci illər ərzində respublikamızda 829 yeni sənaye müəssisəsi açılmışdısa, 2002-ci ilin yanvarın 1-nə qədər onların sayı 5018-ə çatmışdı. 1998-2001-ci illərdə xarici və müştərək müəssisələrin sayı 38,8 faiz artmışdı. 2001-ci ildə Kaspian Fiş, Bakı Stil Kmpani, Boru-profil sənaye kimi yeni sənaye müəssisələri məhsul istehsalına başlamışdılar.[16, s.455].

Sənaye strukturunda baş vermiş dəyişikliklər nəticəsində dövlət sektorunun xüsusi çəkisi azalır, özəl sektor isə artmaqda davam edirdi. Bunun nəticəsində ümumi daxili məhsul 2000-ci ilə nisbətən 2001-ci ildə dövlət sektorunda 5,6 faiz azalmışdısa, özəl sektorda 16,5 faiz artmışdı.[14, s.26].

Dövlət Statistika Komitəsinin məlumatına görə 2002-ci ilin on bir ayı ərzində ÜDM istehsalı 10,4 faiz artaraq 25,3 trilyon manata çatıb. ÜDM-un çəkisi sənayedə 34,3 faizə qalxıb ki, bu da keçən ilin müvafiq dövründəkindən 3,3 faiz çoxdur. Sənayenin ayrı-ayrı sahələri inkişafı keçən illə müqayisədə aşağıdakı cədvəldə göstərilmişdir.

| Sənaye müəssisələrinin adı. | Artım. |
|---|---|
| Yanacaq sənayesində | 2,2 faiz |
| Neft və qaz hasilatı sənayesində | 2,3 faiz |
| Metallurgiya sənayesində | 2 dəfə |
| Tikinti materialları müəssisələrində | 50,6 faiz. |

Sənaye məhsulunun 49,2 faizi qeyri-dövlət bölməsində istehsal olunub ki, bu da ötən ilə nisbətən 10,6 faiz artıqdır.[12, 12.2002].

ÜDM-da özəl bölmənin payı 1998-ci ildəki 59,5 faizdən 2003-cü ildə 73 faizə, o cümlədən sənayedə 26 faizdən 54 faizə çatmışdır.[13, 25.11.2003].

Dövlət Statistika Komitəsinin məlumatına görə 2003-ci ilin oktyabr ayına qədər 29 mindən çox kiçik müəssisə və obyekt özəlləşdirilmiş, 1500-ə yaxın səhimdar cəmiyyəti yaradılmışdır.

Başa çatmaqda olan 2003-cü ildə ÜDM 10,5 faiz artaraq 25311,1 milyard manat olmuşdur. ÜDM-da sənaye məhsulunun həcmi 5,8 faiz artaraq 17322,7 milyard manat olmuşdur.[28, 25.12.2002].

İqtisadi sahədə aparılan islahatlar bazar iqtisadiyyatı mexanizmlərinin bərqərar olmasına, yerli və xarici investisiyaların, müasir texnalogiyaları və idaretmə təcrübəsini cəlb etməklə rəqabətədavamlı məhsul istehsal edən müəssisələrin yaradılmasına, mövcud müəssisələrin yenidən qurulmasına, iş yerlərinin açılmasına və nəticə etibarilə xalqın maddi rifahının yüksəldilməsinə yönəldilmişdir.

## ƏDƏBİYYAT

1."Azərbaycan"qəzeti
2."Azərbaycan"qəzeti
3."Azərbaycan"qəzeti
4."Azərbaycan"qəzeti
5."Azərbaycan"qəzeti
6."Azərbaycan"qəzeti
7."Azərbaycan"qəzeti
8."Azərbaycan"qəzeti
9."Azərbaycan"qəzeti
10."Azərbaycan"qəzeti
11."Azərbaycan"qəzeti
12."Azərbaycan"qəzeti
13."Azərbaycan"qəzeti
14.Azərbaycan Respublikasında İnsan İnkişafı haqqında hesabat. Bakı 2002
15.Azərbaycan Respublikası Prezidentinin fərmanları və sərəncamları (yanvar-mart).Bakı 1995
16.Azərbaycanın Statistik gösdəriciləri.Bakı 2002.
17."Bakinski raboçi" qəzeti.
18.Əliyev H. Müstəqilliyimiz əbədidir.Bakı 1997 səh.113
19.Əliyev H. Müstəqilliyimiz əbədidir.Bakı 1997 səh.232-242
20.Əli Nağıyev, Vahid Novruzov, Həsən Allahverdiyev, Əli Əlirzayev "H.Əliyev və Azərbaycan iqtisadiyyatı". Bakı 1997
21. Xalq qəzeti.
22.İnternet.
23.İ.Hüseynova. Müstəqil Azərbaycan Dövlətinin Qurucusu.Bakı 2004 səh.217.
24.İ.Hüseynova. Müstəqil Azərbaycan Dövlətinin Qurucusu.Bakı 2004 səh.275.
25.İ.Hüseynova. Müstəqil Azərbaycan Dövlətinin Qurucusu.Bakı 2004 271
26.İ.Hüseynova. Müstəqil Azərbaycan Dövlətinin Qurucusu.Bakı 2004 173
27.İ.Hüseynova. Müstəqil Azərbaycan Dövlətinin Qurucusu.Bakı 2004 270
28. "Известия" qəzeti.

**ЗАУР САЛИМОВ**

## ЭКОНОМИЧЕСКИЙ РОСТ И СОЗДАНИЕ ЗАКОНОДАТЕЛЬНОЙ БАЗЫ В СФЕРЕ ТЯЖЕЛАЯ ИНДУСТРИЯ АЗЕРБАЙДЖАНА В 1991-2003 ГОДАХ

В статье говорится о проведении реформ в сфере ***тяжелая индустрия*** в Азербайджане в 1991-2003 годах. Здесь экономический рост изучен на основе данных Государственного Статистического Комитета.

**ZAUR SALIMOV**

## DEVELOPMENT OF LEGİSLATİON BASE OF REFORMATİONS İN THE HEAVY INDUSTRY İN AZERBAİJAN AND ECONOMİC GROWTH İN 1991-2003

The article dealt with the reformations in the **heavy industry** in Azerbaijan **1991-2003.** Growth tempo of economy was researched corresponding to information of State Statistical Committee.

***Rəyçilər: t.e.n.C.Ə.Bəhrəmov, t.e.d.İ.X.Zeynalov.***
***AMEA-nın Tarix İnstitutu «Azərbaycan Respublikasının tarixi» şöbəsinin 05 may 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protookl №06).***